

# I Avropa Oyunları yaxınlaşmaqdadır

## *Bu möhtəşəm tədbirdən bizi 23 gün ayırır*

## *Avropa Oyunlarının məşəli bu gün Qazax və Ağstafa rayonlarında alovlandırılacaq*



## İlk Avropa Oyunlarının səyahət yolu

***Atəşgah Məbədi -Naxçıvan - Lənkəran - Lerik - Astara - Yardımlı - Masallı - Biləsuvar - Cəlilabad - Salyan - Neftçala -Şirvan - Hacıqabul - Saatlı - Sabirabad -İmişli- Füzuli (Horadiz) - Beyləqan - Yeni Xocavənd - Ağcabədi - Ağdam (Quzanlı) - Zərdab - Tərtər - Yevlax - Bərdə - Goranboy -Naftalan - Göygöl - Gəncə -Daşkəsən - Samux - Qazax - Ağstafa - Tovuz - Gədəbəy - Şəmkir - Ucar - Göyçay - Ağdaş - Mingəçevir - Balakən - Zaqatala - Qax - Oğuz - Şəki - İsmayıllı - Qəbələ -Kürdəmir - Ağsu - Qobustan - Şamaxı - Sumqayıt - Xızı - Qusar - Quba - Xaçmaz - Şabran - Siyəzən - Xırdalan - Qobustan Milli Parkı - Bakı Olimpiya Stadionu***

Bu günlərdə Azərbaycan daha bir möhtəşəm tədbiri yeni milli qaydada-- ölkənin qədim rəmzi olan odla, nurla qarşılayır. Cəmi 27 ay ərzində hazırlıq görülən bu mötəbər tədbir indi dünyanın diqqət mərkəzindədir. Aprelin 26-da Avropa Oyunları məşəlinin alovlandırılması mərasimində çıxış edən Avropa Olimpiya Komitəsinin Prezidenti Patrik Hikki demişdir: **«Belə qısa müddət ərzində görülmüş bu qədər işləri hətta ən çılğın arzularımızda təsəvvur edə bilməzdik. Əslində, bütün Bakı heyəti hətta oyunlar başlamazdan öncə dünya rekorduna imza atdı».**

Bu qiymət dünyada böyük nüfuz sahiblərindən birinin, müstəqil Azərbaycanımıza, onun indiki nüfuzuna, sürətli sosial-iqtisadi inkişafına verdiyi yüksək qiymətlərdən biridir.

Məlum olduğu kimi aprel ayının 26-da Bakıda keçiriləcək ilk Avrorpa Oyunlarına start verilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev, ölkənin birinci xanımı, I Avrorpa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin və 150 nəfərdən artıq qonağın iştirakı ilə birinci Avrorpa Oyunlarının rəmzi məşəli alovlandırılmışdır.

Dövlətimizin başçısı İlham Əliyev Azərbaycan paytaxtının 30 kilometrliyində, Abşeron yarımadasının Suraxanı qəsəbəsinin cənub-şərq hissəsində yerləşən od məbədindən alovlandırdığı məşəli Olimpiya çempionu Rəfiqə Şabanovaya təqdim etmişdi. R. Şabanova məşəli bütün mərasim üzrə nümayiş etdirmiş, beləliklə ilk Avropa Oyunları tarixə düşən əlamətdar bir hadisə kimi odlar yurdu Azərbaycandan start götürmüşdür. Bu, Avropanın tarixinə yazılan əbədi bir hadisədir.

Aprel ayının 27-də Atəşgahdan səyahətə başlayan məşəl ilk olaraq Nuh yurdu Naxçıvana gəlmiş, sonrakı günlərdə Lənkəran, Lerik, Astara, Yardımlı, Masallı və digər rayonlardan keçərək marşurutunu davam etdirir. Ümumiyyətlə dünənə qədər 22 rayonda alov festivalları keçirilmişdir. Bu gün isə alov festivalının Yevlax və Bərdə şəhərlərində keçirilməsi nəzərdə tutulur. May ayının 26-da isə məşəli İsmayıllı və Qəbələ payonları ictimaiyyətinin nümayəndələri qarşılayacaqlar.

Əlbəttə, bu günlərdə bütün Azərbaycan özünün əlamətdar və tarixi günlərini yaşayır. Qitənin bu möhtəşəm idman bayramının ilk dəfə ölkəmizdə keçirilməsi bütün Azərbaycan xalqının gürür, şərəf və şöhrət günləridir, Avropanın ölkəmizə göstərdiyi ehtibar və etimad rəmzidir. Artıq bu günə qədər Avropa Oyunlarına dəstək verən 50-yə qədər ölkədə bu inam və etimad öz əksini və təsdiqini tapmışdır. Hazırda Avropa Oyunları məşəlinin nur saçdığı rayonlarda bu mötəbər idman tədbirinin necə əks-səda doğurduğu da məlumdur.

Yəqin ki, mayın 26-da qədim Azərbaycanın 900 il paytaxt şəhəri, maddi və mədəniyyət abidələri ilə zəngin olan Qəbələdə də möhtəşəm idman məşəli yüksək səviyyədə qarşılanacaq, burada da bayram festivalı böyük təntənə ilə qeyd olunacaqdır.

Məşəl mayın 27-də Qəbələdən Kürdəmir rayonuna start götürəcək, sonra respublikanın digər rayonlarında da şölələnəcək, bu şöləsinin parlaq nurunun əks-sədası dünyanın bir çox ölkələrinə çatacaqdır.

Məşəl iyun ayının 7-də, bazar günü Bakıya gətiriləcək. Azadlıq meydanından Bayraq meydanına qədər beş günlük möhtəşəm tədbirlər davam edəcək. Bu günlərdə Bakının qonaqlarına təklif edilə biləcək qədər sərvətlərimiz nümayiş etdiriləcək.

Axşam tədbirləri bayram şənliklərinə qatılmaq üçün minlərlə insanı bir araya gətirəcək. Hər bir tədbirdə mis çubuqlar şəbəkəsi üzərində dayanan zərif, dayaz piyalə formasında olan kasa təntənəli şəkildə yandırılacaq və xüsusi olaraq hazırlanmış «alov şousu» keçiriləcəkdir.

Açılış mərasimi üçün məşəl iyun ayının 12-də isə Olimpiya stadionuna çatdırılacaq və yarışların sonuna qədər şölə saçacaqdır.

Yarışa qatılan idmançılara uğurlar olsun!

**Nadir ATAKİŞİYEV.**

# İncəsənət məktəbinin geniş tədbiri

Ötən həftə rayonun Mədəniyyət mərkəzində bir qələbəlik vardı. Rayon incəsənət məktəbində ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə müəllim və şagird kollektivlərinin təşkilatçılığı ilə böyük konsert proqramı hazırlanmışdır. Mədəniyyət mərkəzinin 374 nəfərlik salonu dinləyicilərlə tamamilə dolmuşdu. Hətta yan tərəflərdə və salonun arxasında geniş proqramı dinləmək üçün ayaq üstə dayanan tamaşaçılar da vardır.

Tədbirdə valideynlər, şagirdlərin yaxınları və gənclər, musiqi həvəskarları iştirak edirdilər.

Tədbiri rayon mədəniyyət və turizm şöbəsinin müdiri Nargilə Qafarova və məktəbin direktoru Əhməd Qəndiyev giriş sözu ilə açdılar. Çıxış edənlər qeyd etdilər ki, may ayı həmişə ən əziz və yadda qalan hadisələrlə zəngindir. Bu ay ilin ayları arasında bayramlar ayı kimi özünə şərəfli bir ad qazanmışdır. Rayon incəsənət məktəbinin valideyn yığıncağı da məhz 9 may faşizmi üzərində böyük Qələbənin 70 illiyi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildbönümü ərəfəsinə təsadüf etmişdir. Sizləri əmin edirik ki, dahi şəxsiyyətin doğum gününə həsr edilmiş bayram konserti öz rəngarəngliyinə, melodik axarına görə hamınızın ürəyincə olacaqdır.





Sonra səhnəyə ilk olaraq məktəbin şagirdlərdən ibarət xor kollektivi çıxdı. Xor kollektivi Əfsər Cavanşirovun «Heydər Babamız» mahnısını ifa etdi. Bundan sonra birbirinin ardınca 2-ci, 3-cü, 4-cü, 5-ci və digər siniflərin şagirdləri səhnədə göründülər. Onların ifa etdikləri Azərbaycan xalq mahnıları, bəstəkar mahnıları, muğamlar, gözəl xoreoqrafik və milli rəqslər salona toplaşan tamaşaçılar tərəfindən alqışlarla qarşılandı. Bu konsert həm də məktəb şagirdlərinin dərs ili ərzində qazandıqları bilik və bacarıqların sanki hesabat konserti, məktəb rəhbərliyinin və müəllim kollektivinin ağır, çətin, eyni zamanda şərəfli əməyinin bəhrəsi və nümayişi idi.

**Nadir ATAKİŞİYEV.**